AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


# QOBUSTAN: DÖVLƏT SİYASƏTİMİZİN PARLAQ NÜMUNƏSİ



***Bəli, bu günkü Qobustan...***

... Dövlətimizin siyasəti belədir: Müstəqil Azərbaycan Respublikası daim inkişaf etməli, xalqın rifah halı yüksəlməlidir. Cənab Prezidentin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, bir zamanlar arzulardan da uzaq görünənlər, indi reallaşaraq gerçəkliyə çevrilir, sevinclər bəxş edir. Bakının ucalan və modernləşən dünya şöhrəti, regionların sosial-iqtisadi inkişafındakı müasirləşmənin təntənəsi... Və bu təntənənin, bu iftixarın ünvanlarından biri də indiki Qobustan rayonudur. Sovet dövründə özünəməxsusluğu və müəyyən qədər inkişaf görüntüləri ilə diqqəti çəkən rayonlarımız olubdur. Ancaq o illərin Qobustanı kimi yerində sayan və miskin görkəmli rayonlarımız iki-üç ola ya olmayaydı. Bəs indi necədir? Məhz gördüyünüz kimidir. Burada biz yeni nəslə Qobustanın bozumtul və tozlu-palçıqlı keçmişindən danışası olsaq bəlkə də şübhə ilə yanaşılacaq. Ona görə ki, bu günün Qobustanı sanki sökülüb yenidən qurulan bir məkanı xatırladır. Kiçik və səliqəli, modern biçimli rayon mərkəzini tanımaq olmur. Hansı tərəfdən baxsan inkişaf və yeniləşmə... Təcrübəli icra başçısı Adil Məmmədov deyir ki, Qobustan sakinləri bütün bunlara görə, yeni müstəsna qayğı və diqqətə görə cənab Prezidentimizə daim minnətdarlıq edir, rəhbərə ən xoş arzularını ünvanlayırlar.

***Prezidentin qayğısı sevinc bəxş edir***

Dövlət qayğısına və inkişafa minnətdarlıq, daha yaxşı çalışmaq əzminin nümayişi rayonda keçirilən bütün görüş və yığıncaqlarda da yüksək əhval-ruhiyyə ilə əks olunur. 2015-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş ümumrayon yığıncağında dinlənilən məruzə və çıxışlardakı kimi. Yığıncaqda geniş məruzə ilə çıxış edən Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov demişdir:

- 2015-ci ildə Qobustan rayonunda da mühüm işlər görülmüş, əlamətdar tədbirlərlə yadda qalmışdır. "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Qobustan rayonunda 15 istiqamət üzrə 18 tədbirin həyata keçirilməsi nəzərdə tutulur. Tədbirlərdən 11-i qismən icra edilmiş, 2-sinin icrası yaxın vaxtlarda tam başa çatdırılacaqdır. Digər tədbirlərin icrası davam etdirilir.

Rayonumuzda son illərdə yol təsərrüfatı sürətlə inkişaf edir. Möhtərəm Prezidentimizin imzaladığı 4 dekabr 2013-cü il tarixli 137 nömrəli sərəncamına əsasən tikintisinə başlanılmış, ümumi uzunluğu 17250 metr olan, 15 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Təklə-Sündü-Xilmilli avtomobil yoluna birinci lay asfalt örtüyü vurulmuş, 23 su ötürücüsü və 9 dayanacaq quraşdırılmışdır. Yolun tamamlanması üçün "Qobustan rayonunun Təklə-Sündü-Xilmilli avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2016-cı il tarixli sərəncamına əsasən "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinə 700 min manat vəsait ayrılmışdır.



5 yaşayış məntəqəsinin və 5 minə yaxın əhalinin istifadə etdiyi Qobustan-Poladlı yolunun tikintisi "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-na daxil edilmişdir.

Qobustan şəhərində ötən il 14 min kvadrat metrdən artıq yola asfalt örtüyü vurulmuşdur. Növbəti aylarda da şəhərdə asfaltlanma işləri davam etdiriləcəkdir.

Rayonun daxili imkanları hesabına Şıxzahırlı kəndinə gedən 3 km yol əsaslı təmir edilərək sakinlərin istifadəsinə verilmişdir. Ərəbqədim kəndində yolun cari təmiri işləri aparılmışdır.

Rayonumuzun mədəni və iqtisadi həyatına daha ciddi təsir göstərəcək layihələrdən biri də "Polad Yol Yapı" Şirkəti tərəfindən icrası həyata keçirilən Bakı-Şamaxı yolunun 4 zolağa genişləndirilməsidir. Podratçı şirkətin təcrübəli olması işin sürətli və keyfiyyətli görülməsini təmin edir. Artıq yolda işlərin böyük bir hisəsi yekunlaşmaq üzrədir.Onu da qeyd edək ki, bu yolun əksər hissələrinin istifadəyə verilməsi yol nəqliyyat hadisələrinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.

> **"...Görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

***Rayon iqtisadiyyatının əsasları***

2015-ci ildə rayonumuz iqtisadi inkişaf göstəriciləri ilə seçilmişdir. 2014-cü illə müqayisədə ümumi məhsul buraxılışı 13,7 faiz, kənd təsərrüfatı məhsulunun həcmi isə 23,5 faiz artmışdır.Ümumi məhsulda qeyri-dövlətin xüsusi çəkisi 96,4 faiz təşkil edir. Bitkiçilikdə bu artım 3 dəfə, heyvandarlıqda 2,3 faiz, ticarətdə 12 faiz, rabitədə 9 faiz, nəqliyyatda 8,1 faiz təşkil etmişdir.Baxılan dövrdə rayonda pərakəndə əmtəə dövriyyəsi 10,9 faiz, pullu xidmətlər 17,9 faiz, iaşə xidməti 13,4 faiz çox olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyalar 15,7 faiz, o cümlədən tikinti quraşdırma işlərinin həcmi 18 faiz artmışdır.

2015-ci ildə Qobustan rayonunun yerli gəlirləri üzrə büdcəsi 101,5 faiz icra edilmişdir.2015-ci ildə büdcə xərclərindən qənaətlə istifadə olunmuşdur. Ümumilikdə məxaric planı 89,0 faiz icra edimişdir.

Cənab Prezidentin rayon icra hakimiyyətləri qarşısında qoyduğu əsas məsələlərdən biri də hər bir rayonun özünü maliyyələşdirməyə nail olmasıdır. Bununla əlaqədar olaraq rayon icra hakimiyyətində müvafiq komissiya yaradılmış, mövcud büdcənin bütün tədiyyə növləri üzrə icrası vəziyyəti təhlil edilir, rayonun dotasiyadan asılılığının aradan qaldırılması üçün ehtiyatların aşkar olunması, yeni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə araşdırmalar aparılır. Rayona investisiyaların cəlb edilməsi məqsədilə sahibkarlarla görüş keçirilmiş, müvafiq danışıqlar aparılır. Biz 2018-ci ilədək rayonumuzun özünü maliyyələşdirməsini qarşıya məqsəd qoymuşuq.

**(Ardı var)**

**Məzahir ƏHMƏDOĞLU**